# Qax: Dünəni, bu günü və gələcəyi ilə qürur duyulan diyar

***Əvvəlcə bu dağlar diyarının tarixinə ötəri bir nəzər. Nəinki əcnəbi və yerli turistlər, hətta mən – uzun illər bölgə müxbiri kimi Qaxı qarış-qarış gəzmiş jurnalist də hər gəlişimdə "İçəribazar"ı görməmiş qayıtmıram. Tarixçi dostlarım danışırlar ki, yerli feodal, İlisu sultanı Adı Görklü bəy XVI əsrdə Qax qalasını tikdirmişdir. Sonralar yerli əhali tərəfindən "İçəribazar" adlandırılan "Qax qalası"nın yerləşdiyi ərazi dəfələrlə böyüdülmüş, həmçinin XVIII əsrə aid "Qaxmuğal" məscidinin əhatəsi də genişləndirilərək, müasir görkəmini almışdır. "İçəribazar" XIX əsrin sonları, XX əsrin əvvəllərindən yaşayış yeri, mədəni əyləncələrin, xalq yaradıcılığının və milli bayramların keçirildiyi yer kimi öz funksiyasını davam etdirir. Təsadüfi deyildir ki, indiyədək qələmə aldığım məqalələrin bir çoxunda bu tarixi ünvanı ya vəsf etmiş, ya da haqqında söz açmışam.***







## Gələcəyə nəfəs verək

İndi isə rayonun bu günü haqqında. Gənc müstəqil Azərbaycanın mühüm turizm bölgələrindən birinə çevrilmiş Qaxda bu gün bir neçə müasir mehmanxana, "Şəfa" istirahət və müalicə pansionatı, "İlisu" pansionatı, "Yaşıl park", "Ulu", "İmproteks", "Ulu dağ" turizm və istirahət mərkəzləri və "Eden" park - hotel, "Səngər qala" istirahət mərkəzi, "El Resort" beşulduzlu otel turistlərə xidməti həyata keçirir. Pandemiyanın dünya turizmini öz cənginə almasından əvvəl Qaxa gələn əcnəbilərin sayı nəinki ildən-ilə, hətta aydan-aya, gündən-günə artırdı. Əminik ki, yaxın gələcəkdə həmin tendensiya tamamilə bərpa ediləcək.

Qaxın gələcəyi barədə söz açmaq istəyəndə isə qeyd etməliyik ki, bu gün rayonda gələcəyə "nəfəs verilir". Bu obrazlı ifadəni iştirakçısı olduğum bir tədbirin adından götürmüşəm. Belə ki, martın 16-da rayonda "Gələcəyə nəfəs" adlı ağacəkmə aksiyası keçirilirdi. Aksiyanın nə üçün belə adlandırıldığını öyrənmək istədim. Dedilər ki, bu tədbir Gənclərin İnkişaf və Karyera Mərkəzinin Qax nümayəndəliyi tərəfindən təşkil olunub. Aksiyanın adına gəlincə isə, məlum oldu ki, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn 29 nəfər qaxlı gəncin xatirəsinə Şəhidlər xiyabanında 29 ağac əkilib. Əlavə etdilər ki, İnkişaf və Karyera Mərkəzi könüllülərinin və rayon gənclərinin təşəbbüsü ilə reallaşdırılan bu layihə gələcəkdə də davam etdiriləcək və daha geniş miqyasda həyata keçiriləcək. Gözəl məramdır: Gələcəyə nəfəs verək.

Xatırladaq ki, ölkəmizin şanlı qələbəsi ilə nəticələnən 44 günlük İkinci Qarabağ müharibəsində qaxlı gənclər də fəal iştirak ediblər. Yüzlərlə gənc ordu sıralarına daxil olmaq və müharibədə iştirak etmək üçün könüllü olaraq Qax Rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdi. Rayon gəncləri şəhidlərin dəfnində yüksək mütəşəkkilliklə iştirak edib, şəhid ailələrinə və qazilərə baş çəkərək mənəvi dəstək olublar.



## Avropa İttifaqının maliyyə dəstəyi ilə reallaşacaq yeni sistem

Bu il fevral ayının 6-da mənim bölgə müxbiri kimi fəaliyyət göstərdiyim üç rayonu əhatə edən mühüm bir fakt qeydə alınmışdı. Belə ki, Zaqatala, Qax və Balakən rayonlarının Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemi kimi qeydiyyata salınacağı barədə qərar qəbul edilmişdi. Bu nə deməkdir?

Öyrəndik ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının həyata keçirdiyi "Azərbaycanın şimal-qərb bölgəsində dayanıqlı və inklüziv yerli kənd təsərrüfatı və qida sistemlərinin inkişaf etdirilməsi" layihəsi çərçivəsində bölgədə Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemi tələblərinə cavab verən məntəqələr seçiləcək. Bu sistem kənd təsərrüfatı biomüxtəlifliyini, möhkəm ekosistemi və dəyərli mədəni irsi birləşdirən mənzərəli məkanlardır. İqlim dəyişikliyinə tab gətirən bu ərazilərdə ənənəvi kənd təsərrüfatı təcrübələri sayəsində aqrar biomüxtəlifliyi qoruyan dayanıqlı ekosistemlər formalaşıb. Bu siyahıda qeydə alınmaq bölgənin hazırkı və gələcək qida təhlükəsizliyi, əhalinin dolanışıq vəziyyətinin təminatı, eləcə də digər iqtisadi və ətraf mühit məhsul və xidmətlərinin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Layihənin əsas məqsədi kiçik kənd təsərrüfatı sahibkarlığını dəstəkləyən dəyər zəncirlərinin formalaşdırılması və ərazidə yoxsulluğun aradan qaldırılmasına töhfə verməkdir. Bölgənin aqrar turizm potensialının inkişafı da layihənin hədəfindədir. Bölgədə seçilmiş ərazilərin həmin qeydiyyata düşməsi nəinki bu rayonların, ümumilikdə, Azərbaycanın xarici turistlərə tanıdılması üçün əhəmiyyətli addım olacaq. Qeydiyyata alınan ərazilər və icmaların üstünlüyü ondadır ki, həmin ərazilərdə yaşayan və fəaliyyət göstərən fermer və emalçıların istehsal etdiyi məhsullar qlobal miqyasda tanınmaqla bərabər, bu icmalara xarici turistlərin səfər etməsi, aqrar turizmin inkişafı üçün münbit şərait yaranır. Xatırladaq ki, hazırda dünya üzrə 22 ölkədən 62 ərazi bu qeydiyyata alınıb. Yeni hamının görmək istədiyi, qələm sahiblərinin isə yorulmadan vəsf etdiyi Qaxın çox möhtəşəm gələcəyi var.

## Tərəqqinin bir yolu var – Heydər Əliyev yolu

Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyevlə dağlar diyarının bu günü ilə bağlı söhbət etdik. Əslən Qaxdan olan və qədim diyarın hər daşını, hər qarış torpağını tanıyan, bütün insanları öz doğması kimi qəbul edən, fəaliyyət tarixində "Tərəqqinin bir yolu var – Heydər Əliyev yolu" tezisini bayraq edən Musa müəllim rayonun tarixi, təbiəti, insanları və bugünkü uğurları barədə elə ürəklə danışdı ki, mən hansısa sual verməK fikrindən daşındım.

Rayon rəhbəri Prezident İlham Əliyevin "Bizim şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi" sözlərini yada salaraq bildirdi ki, Azərbaycan siyasi, iqtisadi və hərbi gücü sayəsində qarşıda duran əsas vəzifəni şərəflə yerinə yetirmişdir.

Həmsöhbətim əlavə etdi ki, respublikamızın hər yerində olduğu kimi, Qaxda da dövlət siyasəti uğurla davam etdirilir və Prezidentin "Hər bir məmur xalqın xidmətində durmalıdır" çağırışının icrası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. O xidmət özünü necə biruzə edir? Məsələn, son bir ildə rayonda 200-dən çox yeni iş yeri yaradılıb. Orta aylıq əmək haqqı 399 manat olub ki, bu da əvvəlki ilin göstəricisindən 65,2 manat çoxdur.

Sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda sahibkarlara 170 min manatadək güzəştli kredit verilib və həmin kreditlər hesabına da xeyli yeni iş yeri yaradılıb.

Bitkiçilik və heyvandarlıq məhsulları istehsalının dinamik inkişafının təmin olunması üçün nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilir. Qax üçün ənənəvi istehsal sahələri olan tütünçülüyün və baramaçılığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət verilərək ötən il 496,4 hektar sahədə tütün əkini aparılıb, 755,6 ton quru tütün tədarük olunub.

Ötən təsərrüfat ilində rayonda 12,8 ton barama istehsal olunub. Kümdarlara barama istehsalına görə 58,3 min manat subsidiyanın verilməsi təmin olunmuşdu. Rayonda baramaçılığın yem bazasının artırılması məqsədilə ötən il 28 min 235 ədəd yerli tut tinginin əkini aparılıb.

Regionların təbii-iqlim şəraiti və istehsal ənənələri nəzərə alınmaqla ixrac yönümlü məhsul istehsalının artırılması məqsədilə hesabat ilində rayonun ayrı-ayrı ərazilərində 22,5 hektar sahədə yeni fındıq bağları salınıb.

Etiraf edim ki, "ekobağ" ifadəsini də o qədər çox işlənən söz kimi qəbul etmirik. Ancaq Musa müəllim o barədə də danışdı və dedi ki, rayonda yaradılmış Aqropark ərazisində ötən il ekoturizmin inkişaf etdirilməsi məqsədilə 50,5 hektar ərazidə müxtəlif növ meyvə tingləri əkilməklə ekobağ salınıb, suvarmanın yüksək səviyyədə təşkili məqsədilə damcılı suvarma sistemi quraşdırılıb. Bundan başqa, "Aqrolizinq" ASC-nin rayon bölməsi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli qiymətlə 941 ton müxtəlif növ mineral gübrələrin və 1884 litr həcmdə pestisidlərin satışı təmin olunub.

"Qax rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2020-ci il tarixli sərəncamına uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonun 17 yaşayış məntəqəsində – Almalı, Baydarlı, Dəymədağlı, Əlibəyli, Güllük, İbaxlı, Kiçik Alatəmir, Qaradolaq, Qındırğa, Qıpçaq, Qorağan, Lələpaşa, Marsan, Turaclı, Uzuntala, Zərnə kəndlərində və Qax şəhərində artezian və subartezian quyuları qazılıb.



## Sabahın təməli bu gün qoyulur

Təbii ki, "sosial-iqtisadi inkişaf" deyəndə yada düşən ilk sahələrdən biri də tikinti-quruculuq və abadlıq işləri olur. Qaxda da bu istiqamətdə kifayət qədər iş görülüb. Məsələn, Amanlı kəndində modul tipli ibtidai məktəb tikilərək istifadəyə verilib, Qax Peşə Liseyinin 2 emalatxanası əsaslı təmir olunub, Qaxingiloy kənd 19 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmir işləri davam etdirilib. Bundan başqa, Ağçay kəndində 3 mərtəbəli otel binasının və Heydər Əliyev Fondu tərəfindən Qaxingiloy kənd mədəniyyət evinin tikinti işləri, həmçinin Qax şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilib.

Eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qax şəhərində, Ləkit və Ləläli kəndlərində 1-ci Qarabağ müharibəsi əlillərinə 5 ədəd fərdi yaşayış evinin tikintisinə başlanılıb və işlər hazırda davam etdirilir. Rayon icra hakimiyyəti tərəfindən 75 fərdi yaşayış evinin tikintisinə, 18 fərdi yaşayış evinin istismarına, eyni zamanda, 7 sahibkarlıq obyektinin tikintisinə və 9 sahibkarlıq obyektinin istismarına icazə verilib.

Bax belə. Ölkəmizin gəzməli və görməli rayonlarından olan Qaxın tarixi, bu günü və sabahı barədə bəzi mülahizələrimizi qələmə aldıq. Qaldı ənənəvi təbiət gözəllikləri. Mən bir dəfə yazmışdım ki, zoğal ağacları ən tez – hələ fevralın son günlərində Qəbələnin dərələrində çiçəklənirlər. Şair dostum Ramiz Rövşən isə fevralda bənövşənin Qaxın Əmbərçay kəndində açıldığını görmüş və heyrətini mətbuata çıxartmışdı.

Əslində, burada elə də qeyri-adi nə isə yoxdur. Ramiz Qusarçaylının yaşadığı Quba rayonu Qafqaz dağlarının şimal yamacındadır. Qax isə dağların cənub yamacında olduğuna görə, relyef buradakı bitkiləri soyuqdan bir az qoruyur. Ancaq mən belə düşünürəm ki, fevralda açılan bənövşələr qaxlıların ürəyinin istisinə arxayın olurlar.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***